*Ə.Ələkbərova. Nəcəf bəy Vəzirov və Şuşa mühiti*
*// Əlyazmalar yanmır, 2022, № 1 (14), s.76-82.*

UOT: 82-1.512.162

**Əzizə Ələkbərova**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: seljanzadeh@gmail.com*

# NƏCƏF BƏY VƏZİROV VƏ ŞUŞA MÜHİTİ

**Xülasə**

Mirzə Fətəli Axundov ədəbi məktəbinin ilk davamçısı olmaqla yanaşı Azərbaycan mədəniyyət tarixində ilk aktyor, ilk felyetonçu, ilk faciənin, ilk meşəçiliyə, ilk neftə aid əsərin müəllifi, istedadlı publisist Nəcəf bəy Vəzirov böyük bir kütləni əsərləri, teatr, publisistik fəaliyyəti düşündürməyə vadar etmiş, onlarda yaradıcılıq meylərinin yaranmasına səbəb olmuş, digər tərəfdən isə müəllimlik işi ilə ölkəmizdə xeyli maarifçi insanların yetişdirilməsində rolu olmuşdur. Nəcəf bəyin yetişməsində isə anası Mina xanımın, müəllimi Həsən bəyin, Bakı və Moskva mühitinin təsir etmişdir. Əlbəttə, Şuşa mühiti, bəy nəslinə məxsusluğu da Nəcəf bəy kimi istedadın formalaşmasının digər mühüm arqumentidir. Nəcəf bəy Şuşada yəqin ki, televiziya, qəzetin olmadığı bir zamanda şair Molla Pənah Vaqifin, Baba bəy Şakirin, Qasım bəy Zakirni, Xurşudbanu Natəvanın dillərdə dolaşan yaradıcılığı, həyatları haqqında eşitmiş,çox güman ki, onlar kimi o da yazıb – yaratmaq istəmişdi. Bəlkə də Şuşada daim yaşasaydı o da şair olardı, çünki şairin arxivini araşdırarkən iki şeir yazdığını aşkarladım. Ailəsinin maddi sıxıntısı, atası, iki bacı, öz yükünün zərif bir qadının üzərinə düşməsi Nəcəfin uşaq qəlbini incitmiş, digər tərəfdən müəlliminin sərt rəftarı onun Şuşadan Bakıya getmək məcburiyyətində qoymuşdu. Həsən bəyə rast gəlməsi, ondan təhsil alması, onun tövsiyəsi ilə Axundovun yaradıcılığı ilə tanış olması Azərbaycan ədəbiyyatına ikinci böyük dramaturq bəxş etmişdi.

***Açar sözlər:*** *Nəcəf, Qarabağ, Şuşa, məktəb, təhsil, yaradıcılıq*

**Giriş**

*2021-ci ildə "Nəcəf bəy Vəzirov – "Milli irfana xidmət etmiş nadir sima" adlı kitabın "Qələm iztirabları" adlı ön sözündə ədibin şəcərəsinin nümayəndəsi, yazıçı – publisist Mehriban Vəzir yazır: "Başqa bir məsələ: demək olar ki, bütün resenzistlər və araşdırmaçılar Nəcəf bəyin Moskva mühitindən, Ostrovski teatrından ilhamlandığını, bu mədəni mühitin ədibə təsirini çox doğru olaraq qeyd edirlər, lakin heç bir araşdırmaçı Nəcəf bəyi yetirən*

*Qarabağ – Şuşa mühitindən bəhs etmir. Eləcə də Vəzirovun məhz teatrın təməlini qoyduğu Bakı mühitindən söz açılmır. Daima Moskva mühitini vurğulayan, öz rus heyranlığını ifadə edən müəlliflər Nəcəf bəyi və Azərbaycanın ən ünlü şəxsiyyətlərini yetirmiş Qarabağ- Şuşa mühitinin dəyərini vermirlər. Vəzirovun öz tərcümeyi - halında şikayət etdiyi bu mühitə məqalələrdəki elmi münasibət ədibin nisgilli baxışlarını təkrarlamaqdan o tərəfə getmir. Halbuki Vəzirovun bu fərdi emosiyaların fövqünə çıxmaq, Azərbaycanın o dövr üçün ən münbit təhsil mühitini, ən üstün mədəni çevrəsini, hədəfi təhsil olan ailə mühitini daha dərindən araşdırmaq lazımdır. Hələ təhsilin geniş kütlələr arasında yayılmadığı bir dövrdə övladının oxumağı yolunda özünü fəda edən anaları dəyərləndirmək, oxuya bilməyən yeniyetməyə xor baxan qohum-əqraba psixolojisini araşdırmaq milli mədəni yapının öyrənilməsinə imkan yarada bilər".*

Nəcəf bəy Vəzirov 1854-cü il 2 apreldə Şuşa şəhərində kasıb bəy ailəsində anadan olmuşdur. Atası Fətəli bəy Şuşanın yoxsullaşmış bəylərindən idi. Fətəli bəyin səhhətində ciddi problem olduğu üçün ailəni maddi cəhətdən təmin etmək və uşaqların tərbiyəsi ilə məşğul olmaq Mina xanımın zərif çiyinləri üzərinə düşürdü. Sakit uşaq olan Nəcəf həm də fiziki cəhətdən zəif, cılız idi. Evin yeganə oğul övladı Nəcəfi təhsilli görmək Mina xanımın ən böyük məqsədi idi. Lakin Nəcəfin səhhətində tez – tez yaranan problem onun məktəbə vaxtında getməyinə maneə olurdu. Ana öz arzusuna yalnız Nəcəfin on iki yaşı olanda çatır, övladını dini məktəbə yazdırır. Qısa müddətdə oxuyub - yazmağı öyrənən Nəcəf bir il sonra Şuşa şəhərindəki mülkiyyə məktəbinə gedir. Lakin oradakı müəllimin uşaqlarla sərt davranması Nəcəfi məktəbdən uzaqlaşdırır və 1968-ci ildə Şuşadan ayrılıb Bakıya gəlir.

Nəcəf bəy Vəzirovun Azərbaycan tarixindəki xidmətlərinə diqqət yetirsək Şuşadan ayrılıb Bakıya gəlməsində heç bir yanlışlıq olmadığını qeyd edə bilərik. Ancaq 14 yaşlı uşağın ailədən və doğma yurddan ayrılıb Bakıya gəlməsinə bir müəllimin rəftarı səbəb ola bilərmi və ya Şuşada XIX əsrdə təhsil almaq üçün mühit, məktəb olmamışdımı?

**Qarabağ xanlığının yaranması, inkişafı, Şuşa məktəbləri**

1747-ci ildə Nadir şahın öldürülməsindən sonra Türkmənistandan gəlmiş Bəhmənli elinin Sarıcalı oymağına məxsus Pənahəli xan Cavanşir tərəfindən Qarabağ xanlığının əsası qoyulur. Düşmənlərdən Qarabağ xanlığının mühafizəsi üçün Pənahəli xan öncə Bayat, Şahbulaq qalalarını tikdirsə də, sonradan cənubdan gələn hücumlara və Azərbaycanda baş verən feodal ara müharibələrinə görə xan məsləhət şurası çağıraraq Qarabağ xanlığının paytaxtı Şuşa qalasının tikilməsini qərara aldı. XVIII əsrin ortalarında Azərbaycanda yeni yaranan Şuşa şəhəri tezliklə özünün siyasi, iqtisadi, mədəni inkişafına görə digər şəhərləri qabaqladı. Şuşa dəniz səviyyəsindən 1800-2000 metr yüksəklikdə yerləşməsi, üç tərəfdən meşə ilə dövrələnməsi, digər tərəfdən isə sıldırım qayalıqlar şəhərin düşmən hücumlarından qorumasında olduqca əlverişli idi. On altı məhəllədən ibarət Şuşanın bütün məhəllərində ayrılıqda özlərinin məscidi, kanalzasiya sistemi, hamam və su quyusu var idi. 1760-cı ildə Pənahəli xan Şirazda vəfat edir, 1763-cü ilə qədər hakimiyyətdə oğlu Mehrəli xan (1760-1763), sonra isə hakimiyyətə İbrahimxəlil xan (1763-1806) gəlir. Mirzə Yusif Qarabaği

"Tarixi-safi" əsərinin "Qarabağ əyalətinin təsviri" bölməsində yazır ki, Qarabağ əyalətində 521 oba və kənd olmuşdur.

Kiçik Qafqazın cənub-şərq çıxıntısında, əsasən Kür və Araz çaylar arasında yerləşən Qarabağ xanlığı Azərbaycan ərazisinin ən mühüm məhsuldar torpaq sahələrinin xeyli hissəsini əhatə edirdi. 1816-cı ildə İbrahimxəlil xanın oğlu Əbülfət ağa ilə 4 min ailə Qarabağı tərk etmişdir [2, s. 103]. "Qarabağnamələr"də rəsmi sayımların aparılması məlumatlar olmadığına görə, Qarabağ xanlığı əhalisinin XVIII əsrin II yarısı – XIX əsrin əvvəllərində etnik strukturunun dəqiq müəyyənləşdirilməsi mümkün deyildir. Ancaq 1822-ci ildə Qarabağ xanlığı Rusiya imperiyası tərəfindən ləğv edilib, onun əyalətlərindən birinə çevrilməsindən sonra əhali siyahıya alınmışdır. 1823-cü il siyahıya alınmasına görə Qarabağ xanlığında əhalinin ümumi sayı 90 000 nəfər idi. Şəhər və kəndlərdə 18563 ev vardı [114, s. 22]. Onun 17 mindən çoxunu isə Azərbaycan türk ailələri təşkil edirdi [103, s. 112]. Türkmənçay sülh müqaviləsindən sonra məlum olduğu kimi, xaricdən Qarabağa ermənilərin kütləvi şəkildə köçürülüb yerləşdirilməsi və müharibələr zamanı Qarabağı tərk etmiş müsəlman – türk əhalisi öz doğma yurd yerlərinə dönəmləri nəticəsində burada əhali artdı.

1832-ci ilin kameral təsvirində Şuşada və Qarabağın 741 kənd və obasında 20546 ailə qeydiyyata alınmışdır. Bunun 13956 ailəsi müsəlmanların 6491 ailəsi isə ermənilərin, çox cüzi hissəsi isə qaraçıların payına düşürdü [2, s. 120].

Rzaqulu bəy Mirzə Camalın Qarabağ hadisələrin təsviri baxımından "Qarabağnaməsi" daha mükəmməldir. Qarabağ hökmdarı Pənah xanın Bayat, Şahbulaq və Şuşa qalalarını inşa etdirməsi əhalinin demoqrafik göstəricisinə çox böyük təsiri oldu. Döyüşlərin az olması və təbii artım nəticəsində qısa müddətdə əhali sayında xeyli çoxalmaya səbəb oldu.Belə ki, müdafiə qalalarının tikilməsi hərbi – siyasi cəhətdən Qarabağ xanlığın yad hücumlardan qorudu, xanlıq diqqətini başqa sahələrin inkişafına yönəltdi. İrimiqyaslı işlər və çoxsaylı tikintilərin olması digər bölgələrdən Qarabağ xanlığına insanların gəlib yerləşməsinə səbəb oldu. Buna fakt kimi tarixçi, Qarabağ xanlarının baş vəziri Mirzə Camal "Qarabağ tarixi" adlı tarixi əsərində Bayat qalasının inşası zaman Təbriz, Ərdəbil şəhərlərindən çox sayda rəiyyət, sənətkar ailələri gəlib məskunlaşmağını göstərə bilərik [2, s. 112-116]. Qarabağın mərkəzi Şuşada əhalinin siyahıya alınması zamanı 5079 kişi cinsindən adam qeydiyyata alınmışdır. Məskunlaşma zamanı əhalinin etnik tərkibi dəyişmiş, müxtəliflik yaranmışdır. Azərbaycanlılar yenə də əhalinin 80-85 faizini təşkil etmişdir. Siyahıya alınma zamanı 56 bəy, 64 molla və seyid ailəsi, 9 xristian ruhani ailəsi var idi. Əhalinin artımı ilə rəqabət də artmış, sənətkarlıq, ticarət, barıt istehsalı xüsusən inkişaf etmişdir. Qarabağ tacirləri əsasən Gürcüstan, İran və Rusiya ilə ticarət əlaqələri olmuşdu. Ağa Məhəmməd şah Qacarın Qarabağa hücumu zamanı İbrahimxəlil xanın etdikləri haqqında fransız tarixçi alim Jan Gevr Fransəvi İransa farsca çap olunmuş "Xacə tacidar" ("Xacə şah") əsərinin "İbrahimxəlil xanın Şuşadan çıxması" fəslində yazır ki, Şuşanın qala divarları bir nöqtəyə yönəldilmiş top atəşləri nəticəsində uçmaq təhlükəsi qarşısında qalanda İbrahimxəlil xan Ağa Məhəmməd şah Qacarın fikrini başa düşdü. Bildi ki, şəhərin divarını dağıdandan sonra Qacar qoşunları yaranacaq yarıqdan şəhərə girərək onu xaraba qoyulacaqdır. Bunun qarşısını almağın yeganə yolu topları idarə edən fransız topçularını məhv etməkdir. Ağa Məhəmməd şah da İbrahimxəlil xanın nə edəcəyini təxmin etmişdir. O, bilirdi ki, Arazın suyunu onun düşərgəsinə döndərib böyük xəsarət verən İbrahimxəlil xan çox qorxmaz, eyni zamanda

bacarıqlı bir hərbiçidir, topları sıradan çıxarmaq fikri onun ağlına gələcək. Ona görə də Qacar düşmənin hərəkətlərini çox diqqətlə izləyirdi. O, əsgərlərinə demişdi ki, İbrahimxəlil xan qaladan çıxa bilər [2, s. 159]. 14 may 1805-ci ildə Gəncə yaxınlığında Kürəkçay sahilində Sisianovla Şuşalı İbrahimxəlil xan arasında bağlanan biabırçı müqaviləyə əsasən Qarabağ xanı yalnız Rusiyanın ali hakimiyyətini tanıyır və qonşu dövlətlərlə müstəqil əlaqə saxlamaqdan məhrum edildi [2, s. 183].

Qarabağ xanlığının siyasi, iqtisadi və mədəni tarixini öyrənmək üçün Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi", Əhməd bəy Cavanşirin "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair", Mirzə Yusif Qarabağinin "Tarixi - safi", Mirmehdi Xəzaninin "Kitabi – tarixi - Qarabağ", Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri", Mirzə Rəhim Fənanın "Tarixi cədidi - Qarabağ", Məhəmməd Baharlının "Əhvalati - Qarabağ", Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi", Həsənli Qaradağinin "Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları" və Abbasqulu ağa Bakıxanovun "Gülüstani - İrəm" əsərlərində olduqca qiymətli məlumatlar vardır. Sadalanan mənbələrdən və digər sənədlərdən məlum olur ki, Qarabağ öz gözəlliyi, zənginliyi ilə yanaşı öncə Pənah xan, sonra isə İbrahimxəlil xanım dövründə inkişaf edərək həm mədəni, həm də siyasi cəhətdən Azərbaycanda əsas xanlıqdan birinə çevrildi. XVIII əsrin Azərbaycanın məşhur şairi Molla Pənah Vaqifin Qarabağ xanı İbramxəlil xan Cavanşirin baş vəziri təyin edilməsi Qarabağ xanlığının inkişafına böyük təsir göstərmişdir. Şuşada ilk mollaxana – məktəbi 1771-ci ildə açmış və oğlu Əli ağa məktəbin idarəsi ilə məşğul olmuşdur. Vaqifin digər xidməti isə Şuşada ədəbiyyata marağı daha da çoxaltdı. Molla Pənah Vaqif "xalq – aşıq şeiri üslubunu poeziyanın bədii ifadə vasitəsinə doğru istiqamətləndirməklə" ("Molla Pənah Vaqif - erkən realizm ədəbi cərəyanının yaradıcısı", məqalə, 2 avqust 2021, "Ədəbiyyat qəzeti") realizm şeirinin əsasını qoydu. Vaqifin şeirlərində canlı xalq danışıq dilini peşəkarcasına istifadə etməsi, milli bədii təfəkkürü vəsf edən şeirlər yazması Qarabağda yeni şairlərin yaranmasına səbəb oldu. Ondan sonra "o vaxtkı ədəbiyyatımızı gözəlləşdirən, məzlumun imdadına çatan" (Salman Mümtaz) şair Baba bəy Məhəmmədəli bəy oğlu Sarıcalı – Cavanşir Şakir təxəllüsü ilə şeirlər yazaraq, nəzmi ictimai silaha çevirmişdi. Baba bəy Pənahəli xanın böyük qardaşı Fərzəli bəyin nəvəsi olmasına baxmayaraq, kasıb həyat yaşamış, ancaq heç vaxt şikayət etməmişdir. Yalnız xalqın səfil yaşamasını, haqsızlıqları tərənnüm edən həcvlər yazmışdı. Ədib Qasım bəy Zakirə yazdığı məktubda isə yadellilərin Qarabağda özbaşınalıq edib yerli əhaliyə qarşı amansız davranışlarından bəhs edir:

*Vilayətdə urus olub ixtiyar,*
*Eyləyib bir bina yoxdu görən kar.*
*Tamam işlər olub cahilə bazar,*
*Heyf bu vilayət, heyhatü heyhat!*

Pənahəli xanın qardaşı Kazım bəyin nəvəsi Qasım bəy Əli bəy oğlu Zakir ustadı Baba bəyin yolunu davam etdirərək ictimai satiranın daha kəskin formasını yaratmışdır. Bununla yanaşı ədibin yaradıcılığında təmsillər də mühüm yer tuturdu. Satiralarının tənqid hədəfi çar hakimləri və çarizmin istismarçı qanunları, qaydaları idi.

Zaqafqaziyanın baş hakimi A.P.Yermolov XMN-nə Cənubi Qafqaz daxilindəki Azərbaycan xalqları, həmçinin xarici qonşu hökumətlərlə saysız – hesabsız əlaqələr Azərbaycan dilini bilən bacarıqlı adamlar, tərcüməçilər olmadan mümkün olmadığını yazmışdır. İlk dünyəvi təhsil verən qəza məktəblərinin açılması qərara alındı və birinci qəza məktəbi 1830-cu ildə Şuşada açıldı. İlk dəfə açılmaqla yanaşı, məzmuna görə də Şuşa qəza məktəbi Bakı, Gəncə, Naxçıvan, Şamaxı və Şəki qəza məktəblərindən öndə idi. Şuşa şəhər məktəbində şəriət, oxu, yazı, rus dili, hesab, təcrübi həndəsə, coğrafiya, tarix, fizika, rəsm, rəsmxət, nəğmə, gimnastika, rus və fransız dilinin tədrisi üstünlük verilirdi.

Tarixi və macəra romanları ilə oxucuların rəğbətini qazanmış məşhur fransız yazıçısı, səyyahı Aleksandr Düma "Qafqaz səfəri" əsərində yazır: "Çar Rusiyasını gəzdikcə, mən zadəgan ailələrdə fransız dilinin necə işlək olmasına heyrət edirdim. Xüsusilə kübar qadınlar öz ərlərindən daha mükəmməl fransızca danışırdılar. Ərləri ticarət, siyasətlə məşğul olduqları vaxtda, ...xanımlar fransız dilində romanlar oxuyaraq, ədəbi fransız dilini mənimsəmişdilər..." [4].

XIX əsrdə bütün çar Rusiyasında olduğu kimi Azərbaycanda fransız dili tədris olunurdu ki, bu da həmin ölkə ilə ticarət əlaqələrinin nəticəsi idi. Ancaq Şuşada fransız dilinin tədris olunmasının bir səbəbi də Xurşidbanu Natəvanın fransız dilində mükəmməl danışan əri Xasay xan Usmuyevlə çar Rusiyasını gəzdiyi zaman zadəgan, dövrünün mədəniyyət insanları tərəfindən fransız dilindən istifadə etdiyi görməsi, fransız dilinə qarşı ədibdə yaranan rəğbət olmuşdu. Natəvan fransız dilinin tədrisi üçün maddi yardım göstərirdi.

Qarabağ əhalisinin çox hissəsi dini etiqadına görə şiə müsəlmanları olduğu üçün onları təhsilə cəlb etmək məqsədilə 1849-cu il 23 apreldə Azərbaycanda ilk müsəlman şiə məktəbi Şuşada fəaliyyətə başladı. Doqquz il fəaliyyət göstərən məktəbin əsas hədəfi şəriətdən çox, şiə təriqətinə mənsub uşaqlara rus dili, metafizika, coğrafiya, hesab dərsləri öyrətməkdi.

1864-cü ildə isə Gövhərağa məscidinin nəzdində "Gövhəriyyə məktəbi" adlı mədrəsə Gövhər ağa vəqfinin 175 min manat qızıl pul xərcləməsi hesabına fəaliyyətə başladı və digər məktəblərdən fərqli olaraq əsasən yoxsul uşaqların savadlanması mədrəsəsinin prioriteti idi. Hətta 1875-ci ildə Şuşada Marinski Qız məktəbi dini etiqadından, mənşəyindən asılı olmayaraq bütün qızlara qapılarını açıq etmişdi.

Şuşada məktəblər olmasına baxmayaraq Nəcəf bəy səhhəti ilə əlaqədar məktəbə çox gec getmişdi. Ənvər Çingizoğlunun "Qarabağda maarif (1750-1950)" adlı kitabını vərəqləyərkən görürük ki, Nəcəf bəyə qədər Şuşada xeyli məktəb, öz savadı və təhsili ilə fərqlənən xeyli müəllimlər, ziyalılar var. Amma Nəcəf bəyin təhsil aldığı dövrdə Şuşadakı məktəblər yalnız ibtidai təhsil verirdi. Həmin ərəfədə Azərbaycanda ilk orta məktəblər – Bakıda 1865-ci ildə progimnaziya, 1867-ci ildə real gimnaziya, Gəncədə isə bir klassik progimnaziya fəaliyyətə başladı. Bu məktəblər şagirdlərə natamam orta və orta təhsil verirdi.

**Nəcəf bəyin Şuşanı tərk etmə səbəbi, təhsili və yaradıcılığı**

Şuşada ticarətin, sənətkarlığın, ümumiyyətlə iqtisadi, siyasi inkişafla əlaqəli orta məktəbə ehtiyac get - gedə artırdı. Lakin dəfələrlə Şuşada progimnaziyanın fəaliyyəti üçün müraciət edilsə nəticə olmur, şəhər əhalisi 1880-ci ildə Peterburqa – Qafqaz komitəsinə yazılı müraciət edir. Həm Nəcəf bəyin həyatın oxuyanda, həm də Şuşa mühitinə nəzər yetirdikdə

belə nəticəyə gəlmək olar ki, Vəzirovun Şuşanı tərk etməsinin əsas səbəbi ailədən qaynaqlanır. 1828-ci il Türkmənçay müqaviləsindən sonra Rusiya Azərbaycanın ali təbəqəsinin – xan, sultan, məlik, bəy və ağalarının torpaq üzərində mülkiyyət hüququnu uzun müddət tanımadı. Çarın 6 dekabr 1846-cı il fərmanı ilə Azərbaycanda bəylərin torpaq üzərində mülkiyyət hüququ tanındı və qanuniləşdi. Ancaq həmin əsasnamədəki şərtlər bəylərin əvvəlki vəziyyətə qayıtmasını çətinləşdirdi. Nəcəf bəyin atası da bəy idi. Fətəli bəyin xəstəliyi, digər tərəfdən isə çar Rusiyasının qərarı onun müflisləşdirmişdi. Ailənin yeganə maddi və mənəvi dayağı Nəcəfin anası Mina xanım idi. Kasıb ailəni nisbətən dolanışıqla təmin edən Mina xanım oğlu Nəcəfi mədrəsəyə yazdırır və qısa müddətdə oğlu Quranı öyrənir. Sonra məktəbə gedir, bununla yanaşı qohumundan rus dilində yazıb – oxumağı öyrənir. Məktəbdə müəllimin kobud rəftarı, ağır dolanışıq Nəcəfin Şuşanı tərk etməsinə səbəb olur. Kiçik yaşlı Nəcəf Bakıya gələrək o dövrdə ən mötəbər təhsil ocağı sayılan Bakı Realnı Gimnaziyaya daxil olur, 6 il oxuduqdan sonra 1874-cü ildə gümüş medalla bitirir.

İlk dəfə olaraq dünyada 1847-ci ildə Bibiheybətdə və Balaxanıda texnikanın tətbiqi ilə ilk neft quyuları qazılmışdır. 1859-cu ildə Bakıda Dubinin qardaşlarının iri neftayırma zavodu istifadəyə verilmişdir. Bəli, Nəcəf bəyin dövründə Bakı Şuşadan iqtisadi inkişafına görə çox irəlidə idi. Çünki neft sənayesinə həm xaricdən kapitalın güclü axını başlamış, həm də yerli milyonlara malik sahibkarlar nəsli yetişdirmişdi. İqtisadi inkişaf Bakıda qeyri–neft sektorunun yaranmasına, tərəqqi etməsinə əhəmiyyətli təsir göstərdi. Artıq elm, təhsil, şair, yazıçı, musiqiçilərin əsas hissəsi Bakıya axışırdı. Nəcəf bəy yaşının kiçik olmasına rəğmən, əlbəttə ki, baş verən hadisələri müşahidə edib nəticə çıxara bilib. Onun Bakıya gəlməyinin ikinci səbəbi Azərbaycanın digər bölgələri ilə müqayisədə inkişaf etmiş Bakıda yaradılan orta məktəb və digər şəraitlərdi.

**Nəticə**

*Nəcəf bəy Şuşanı və ailəsini niyə tərk etməsini "Tərcümeyi-halım"da yazır: "Mən 1854-cü ildə bahar aylarında Şuşa şəhərində anadan doğulmuşam. Məni on iki yaşında məktəbə göndəriblər. Üç ay ərzində Quran oxumağı öyrənib, yazıya başladım. Bir ildən sonra məni Şuşa şəhərinin mülkiyyə məktəbinə verdilər. Burada məni bir müəllimə tapşırdılar ki, kardon üzərində yazılmış rus əlifbasını mənə təlim etsin. Mənim yeni müəllimim Mkırtıç adlı bir erməni idi. Bu zalım adət etdiyindən məni haqqa və nahaqqa ya kardon ilə və ya əli ilə döyərdi. Axırda bu işgəncələrə davam etməyib məktəbdən qaçmağa məcbur oldum. Xiş əqvamımdan birisi məni istedadsız bilərək öz yanına alıb rus qəvaidilisaniyyəsinə aşina etməyə çalışdı ki, bəlkə məni kənd Mirzəliyinə qəbul eləsinlər. 1868-ci ildə anamın göz yaşına baxmayıb, dərs oxumaq üçün qaçıb Bakıya gəldim. Anamın ağlaması bundan ötəri idi ki, bəlkə mən kənd Mirzəsi olub ailəmizi saxlayam, çünki bizim həyatımız nəhayət üsrət ilə keçirdi. Atam naxoş və bacarıqsız bir adam idi. Bizi ancaq anamız çalışıb para qazanmaqla saxlardı. Qohum-qardaşlarımızın bizə kömək etməmələrindən dolayı rəhimsizlikləri məni çox dilgir və mütəssir edirdi. O vaxtlar mənim yadıma düşdükcə indi də ürəyim parə -parə olur" [1, s. 416].*

*Nəcəf bəyin bədii və publisistik yaradıcılığına, müəllimlik fəaliyyətinə, ən əsası isə Azərbaycanda ilk teatrın yaradılmasına ideya verməsinə, ilk aktyor kimi fəaliyyətinə,*

*səhnələşdirilmək üçün dramlar yazmasına nöqteyi-nəzərdən çox doğru qərar verməsini, ancaq təqdir etmək lazımdır. Nəcəf bəyin digər uğuru isə Həsən bəy kimi maarifçi insanla rastlaşması, Həsən bəyin tələbəsi olmasıdır. Məhz bu iki insanın xidmətləri sayəsində Azərbaycanda xeyli təhsilli insan yetişmiş, insanların düşüncəsi təşəkkül etmişdir.*

**Ədəbiyyat siyahısı:**

1. Dilarə Məmmədova. Nəcəf bəy Vəzirov. Əsərləri. Bakı, "Şərq-Qərb", 2005, - 422 s.
2.Yunis Hüseynov. Qarabağ tarixi mənbələrdə. Bakı, "Şuşa" nəşriyyatı, 2012, - 248 s.
3. Əzizə Ələkbərova. Nəcəf bəy Vəzirov – "Milli irfana xidmət etmiş nadir sima". Bakı, 2021, - 418 s.
4. Qarabağın "Parisi"ndə fransız dili sevgisi. yeniçağ.az, 17 iyun 2020.

**Aziza Alakbarova**
**Najaf bey Vazirov and Shusha environment**

Besides being the first successor of Mirza Fatali Akhundov literary school, the first actor in the history of Azerbaijani culture, the first columnist, the author of the first tragedy, the first work on forestry, the first oil, the talented publicist Najaf bey Vazirov made a large number of people think about works, theater, journalism. On the other hand, teaching has played a role in educating many enlightened people in our country. Najaf Bey's upbringing was influenced by his mother Mina, his teacher Hasan Bey, and the environment in Baku and Moscow. Of course, the Shusha environment and belonging to the Bey dynasty are another important argument for the formation of talent like Najaf Bey. Najaf bey probably heard about the life and work of poets Molla Panah Vagif, Baba bey Shakir, Gasim bey Zakirni, Khurshudbanu Natava in Shusha at a time when there was no television or newspaper, and probably he wanted to write and create like them. Maybe if he had always lived in Shusha, he would have been a poet, because while researching the poet's archive, I discovered that he wrote two poems. The financial hardships of his family, his father, two sisters, and the fact that his burden fell on a delicate woman, hurt Najaf's childish heart, and on the other hand, his teacher's harsh treatment forced him to leave Shusha for Baku. Meeting Hasan Bey, learning from him and getting acquainted with Akhundov's work on his recommendation gave Azerbaijani literature the second great playwright.
***Key words:*** *Najaf, Karabakh, Shusha, school, education, creativity*

Filologiya üzrə elmlər doktoru, professor
**Paşa Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur.